Tarix və onun problemləri, № 2 2012

**A.T.PAŞAYEVA**
***BDU- nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dissertantı***
***E-mail: TarixVəOnunProblemləri@gmail.com***

# HEYDƏR ƏLIYEV FONDUNUN AZƏRBAYCANIN XARICI SIYASƏTINDƏ ROLU
## (Vatikan səfərinin təfərrüatları)

**Açar sözlər: xarici siyasət, Vatikan, İtaliya, əlyazmalar, mədəniyyət**
**Ключевые слова: внешняя политика, Ватикан, Италия, рукописи, культура**
**Key words: Foreign policy, Vatican, Italy, manuscripts, culture**

Yarandığı gündən Heydər Əliyev Fondu özünəməxsus fəaliyyəti ilə Azərbaycanın ictimai-siyasi həyatında ciddi rol oynamaqdadır. Bu fəaliyyət xarici siyasət sahəsində xüsusilə özünü qabarıq göstərir. Elə bu baxımdan Fondun fəaliyyət dairəsi demək olar ki, bütün dünyanı əhatə etməkdədir. Bu səfərlər Azərbaycanın xaricdə tanınmasında müstəsna dərəcədə rol oynamaqla, ölkəmizin tarixində xüsusi izlər buraxmaqdadır. Səfərlər içərisində elələri vardır ki, xüsusilə diqqətəlayiqdir. Belə səfərlərdən biri də Vatikana olan səfərdir. Qabaqcadan bildirək ki, bu səfərin bəhrələri artıq özünü göstərməkdədir. Məhz Fondun hesabına Vatikanın arxivlərində olan Azərbaycanla bağlı sənədlər ölkəmizə gətirilmişdir və tərcümə olunaraq dərc olunacaqdır. Vatikan səfəri İtaliya mətbuatında da geniş əks-səda doğurmuşdur. Bu yazıda da həmin səfərin təfərrüatlarına toxunmağı qarşımıza məqsəd qoyduq. Belə ki, 28 noyabr 2011-ci ildə Fondun prezidenti Mehriban xanım Əliyeva Vatikana səfər etmişdir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva noyabrın 28-də Vatikanın dinlərarası dialoq naziri Jan-Lui Toran ilə görüşmüşdür. Görüşdə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20 illiyinin geniş şəkildə qeyd olunduğu vurğulanmışdır. Söhbət zamanı ölkəmizin Qərblə Şərq arasında körpü rolu oynadığı, bütün dinlərin nümayəndələrinin dostluq və qardaşlıq şəraitində yaşadığı, Azərbaycanın dünyada tolerantlıq məkanı kimi tanındığı xüsusi qeyd edilmişdir. Bildirilmişdir ki, Vatikan ilə Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir və bu münasibətlərin dərinləşməsində Heydər Əliyev Fondunun xüsusi xidmətləri vardır. Son dövrlərdə Fondun Vatikan kitabxanası ilə qurduğu əməkdaşlıq sayəsində azərbaycanlı mütəxəssislərin bu bilik xəzinəsindən faydalanmasına icazə verilmişdir. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva noyabrın 29-da Vatikanda müqəddəs taxt-tacın dövlət katibi, kardinal Tarçizio Bertoni ilə görüşmüşdür. Vatikanın dövlət katibi Azərbaycanda katolik icması üçün yaradılmış şəraitdən də məmnunluğunu qeyd etmişdir. Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə Vatikan dövlətinin birgə həyata keçirdiyi layihələrin əhəmiyyətini vurğulayaraq, əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini ifadə etmişdir. Azərbaycanın birinci xanımı Prezident İlham Əliyevin salamlarını Roma Papası XVI Benediktə çatdırmağı Tarçizio Bertonidən xahiş edərək, Azərbaycan dövlətinin başçısı adından Papanı ölkəmizə dəvət etmişdir. Görüşdən sonra Mehriban xanım Əliyeva Azərbaycan xalça sənətinin nümunəsi olan hədiyyəni Roma Papasına çatdırmaq üçün kardinala təqdim etmişdir. Hədiyyə üçün təşəkkürünü bildirən Tarçizio Bertoni isə Vatikanın

təsis etdiyi qızıl medalı, həmçinin xüsusi hədiyyə olan, Romada rast gəlinən bitkilər və naxışları özündə əks etdirən XVII əsrə mənsub reproduksiyanın və onların şərhlərinin toplandığı kitabı Papanın adından Azərbaycanın birinci xanımına təqdim etmişdir. Noyabrın 29-da Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycanın Vatikandakı səfirliyinin dəstəyi ilə Vatikanda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak etmişdir. Mərasimdən əvvəl Azərbaycanın birinci xanımı Vatikanın mədəniyyət naziri, kardina Can-Franko Ravazi ilə görüşdü. Vatikanın mədəniyyət naziri bu görüşü Azərbaycana səfərinin davamı adlandıraraq, Heydər Əliyev Fondu ilə tanışlığını xatırlatmışdır. Kardinal Azərbaycanın Vatikandakı Apostol kitabxanasında həyata keçirdiyi layihənin əhəmiyyətini vurğulayaraq demişdir ki, bu zəhmətli iş nəticəsində Azərbaycan haqqında 42 manuskriptdən 15-i bərpa olunmuşdur. Mehriban xanım Əliyeva Azərbaycan ilə Vatikan arasında formalaşmış sıx əməkdaşlıqdan məmnunluğunu ifadə etmişdir. Heydər Əliyev Fondunun prezidenti həyata keçirilmiş birgə layihələrdə Vatikanın rolunu yüksək qiymətləndirərək, bu münasibətlərin gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirmişdir. Sonda qarşılıqlı hədiyyələr təqdim olunmuşdur. Azərbaycanın birinci xanımı Apostol kitabxanasında mühafizə olunan və azərbaycanlı alimlərin də iştirakı ilə bərpa edilən manuskriptlərə baxmışdır . Mərasim iştirakçıları burada Azərbaycanın mədəniyyət nümunələri ilə yaxından tanış olmuşlar. Azərbaycanın Qərb ilə, xüsusən də İtaliya ilə sıx əlaqələr qurduğunu vurğulayan aparıcı bildirmişdir ki, Bakının qərbində yerləşən Qobustandakı qayalar üzərində Roma imperiyasının dövründən qalan yazılar vardır. Azərbaycanın müstəqilliyini bərpa etməsinin 20-ci ildönümü ilə bağlı Avropanın paytaxt şəhərlərində silsilə tədbirlərin keçirildiyini vurğulayan aparıcı qeyd etmişdir ki, indi növbə müqəddəs taxt-tacındır. Bu tədbirin yüksək səviyyədə təşkil olunmasına görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlıq ifadə olunmuşdur. Mərasimdə çıxış edən Vatikanın mədəniyyət naziri Can-Franko Ravazi Azərbaycanı mədəniyyətlərarası dialoqa böyük önəm verən ölkə adlandırmışdır. Kardinal vurğulamışdır ki, Azərbaycandakı katolik icmasının üzvləri sayca az olsalar da, onlar üçün yüksək şərait yaradılmışdır. Azərbaycanda sözün əsl mənasında tolerantlıq hökm sürür. Bütün bunların Bakıya səfəri zamanı canlı şahidi olduğunu deyən kardinal Ravazi Azərbaycana böyük hörmət bəslədiyini də diqqətə çatdırmışdır. Bakının çox gözəl şəhər olduğunu, burada genişmiqyaslı inkişafın getdiyini qeyd edən kardinal demişdir ki, müqəddəs taxt-tac Azərbaycan ilə sıx əməkdaşlıq edir. Biz 42 əlyazmanın bərpası ilə bağlı layihənin həyata keçirilməsi ideyasını irəli sürdük və hazırda bu layihə icra olunur. Söhbət əlbəttə ki, müqəddəs taxt-tacda saxlanılan və Azərbaycana aid əlyazmalardan gedir. Can-Franko Ravazi Heydər Əliyev Fondu ilə Vatikan arasında yaranan əməkdaşlığın faydalı olduğunu diqqətə çatdırmışdır. O, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizin mədəniyyətinin təbliğindəki xidmətini yüksək qiymətləndirmişdir. Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış etmişdir. Mərasimin rəsmi açılışından sonra Xalq Artisti Teymur Göyçayevin dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin ifasında Azərbaycan və dünya musiqisindən seçmələr dinlənilmişdir. Konsertdən sonra qonaqlara zəngin Azərbaycan mətbəxinin nümunələri təqdim olunmuşdur. Mərasim iştirakçılarının yaddaşında silinməz izlər buraxmışdır [1, 2; 5, 2]. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva dekabrın 1-də ölkənin Baş naziri Mario Montinin xanımı Elza Monti ilə görüşmüşdür. Görüşdə ölkələrimizin mədəniyyət və təhsil sahələrində birgə reallaşdırılan layihələr nəzərdən keçirilmişdir, həmçinin Azərbaycan ilə İtaliyanın ali təhsil

məktəbləri arasında tələbə və müəllim-professor mübadiləsinin həyata keçirilməsi barədə razılıq əldə olunmuşdur. Bununla yanaşı, Azərbaycan dilinin və mədəniyyətinin İtaliyada, italyan dilinin isə ölkəmizdə daha geniş tədris olunmasının vacibliyi xüsusi vurğulanmışdır. Mehriban xanım Əliyeva Elza Montini ölkəmizə səfərə dəvət etmişdir. Sonra İtaliyanın Baş nazirinin xanımı Heydər Əliyev Fondunun prezidentinə İtaliya hökumətinin rəsmi qəbullar evi olan Villa Panfininin tarixi və onun yerləşdiyi ərazi haqqında ətraflı məlumat vermişdir. Elza Monti bildirmişdir ki, 17-ci əsrin birinci yarısında inşa olunan Villa Panfini italyan memarlığının şah əsərlərindəndir. Sənət dünyasının ən qiymətli incilərinin qorunub saxlandığı bina ictimaiyyətə ilk dəfə 1972-ci ildə açılmışdır [2, 2; 6, 2]. Tanışlıqdan sonra Elza Montinin adından Azərbaycanın birinci xanımının şərəfinə ziyafət verilmişdirşlər [3, 2-3]. İtaliyaya səfəri çərçivəsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva dekabrın 2-də İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitano ilə görüşmüşdür .. İtaliyanı Azərbaycan üçün dost ölkə adlandıran birinci xanım demişdir ki, Azərbaycanın müstəqilliyinin bərpasının 20-ci ildönümünün keçirildiyi ölkələrdən birinin də məhz İtaliya olması bunun əyani sübutudur. Mehriban xanım Əliyeva Azərbaycan-İtaliya münasibətlərinin inkişafından məmnunluğunu bildirərək, qeyd etmişdir ki, ölkələrimiz arasında mədəniyyət sahəsindəki əməkdaşlığın daha da genişləndirilməsinə ehtiyac vardır. Bununla bağlı 2012-ci ildə İtaliyada bir çox tədbirlərin, həmçinin Azərbaycan mədəniyyət həftəsinin keçirilməsi nəzərdə tutulmuşdur. İtaliya Prezidenti Heydər Əliyev Fondunun mədəniyyət sahəsində həyata keçirdiyi layihələrin əhəmiyyətini nəzərə alaraq Azərbaycanın birinci xanımına memorial xatirə lövhəsi təqdim etmişdir. Dekabrın 2-də Romada Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü və ölkəmizin İtaliyadakı səfirliyinin dəstəyi ilə baş tutan mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva iştirak etmişlər. Mərasimdən əvvəl Mehriban xanım Əliyeva İtaliyanın Xarici İşlər Nazirliyinin dövlət katibi xanım Marta Dassu ilə görüşmüşdür. Azərbaycanın birinci xanımı ölkəmizin dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünün İtaliyanın paytaxtında keçirilməsindən məmnunluğunu bildirmişdir. Mehriban xanım Əliyeva Azərbaycan ilə İtaliya arasında əlaqələrin yüksək sürətlə inkişaf etməsinin təsadüfi olmadığını diqqətə çatdırmışdır. Məqsədinin Azərbaycanın mədəni irsini dünyada tanıtmaq olduğunu vurğulayan Heydər Əliyev Fondunun prezidenti bu görüşün əlaqələrin inkişafına yeni təkan verəcəyini söyləmişdir. İtaliyanın Prezidenti Ciorcio Napolitano ilə görüşünü xatırlayan Mehriban xanım Əliyeva bir sıra vacib məsələlərin müzakirə edildiyini, Azərbaycan ilə İtaliyanı sıx dostluq münasibətlərinin birləşdirdiyini və əlaqələrin daha da genişlənəcəyini diqqətə çatdırmışdır. Xanım Marta Dassu yeni təyin olunduğu vəzifəsində ilk görüşünü məhz Azərbaycanın birinci xanımı ilə keçirdiyindən məmnunluğunu dilə gətirmişdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən bu möhtəşəm gecədə Azərbaycan öz gözəlliyi və mədəni zənginliyi ilə İtaliya tamaşaçısının ürəyinə yol tapmışdır [7, 3].

Göründüyü kimi, baş tutan bu səfərin olduqca böyük nəticələri olmuş, Azərbaycan-İtaliya münasibətlərinin inkişafı baxımından yeni-yeni səhifələr açmışdır. Bu səhifələrin açılmasında Heydər Əliyev Fondunun rolu əvəzsizdir.

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT:

1. "Azərbaycan" qəzeti, 29 noyabr, 2011-ci il.
2. "Azərbaycan" qəzeti, 30 noyabr, 2011-ci il.
3. "Azərbaycan" qəzeti, 01 dekabr, 2011-ci il.
4. "Azərbaycan" qəzeti, 02 dekabr, 2011-ci il.
5. "Xalq" qəzeti, 19 noyabr, 2011-ci il.
6. "Xalq" qəzeti, 30 noyabr, 2011-ci il.
7. "Yeni Azərbaycan" qəzeti, 02 dekabr, 2011-ci il.
8. www.heydar-aliyev-foundation.org

**ПАШАЕВА АЙБЕНИЗ ТЕЛМАН КЫЗЫ**
***E-mail: TarixVəOnunProblemləri@gmail.com***

### Роль Фонда Гейдара Алиева во внешней политике Азербайджана (по визиту в Ватикан)

28 ноября по 2 декабря первая леди Азербайджана, президент фонда Гейдара Алиева Мехрибан Алиева находилась с визитом в Ватикане и Риме, приняла участие в торжественных мероприятиях, посвященных 20-летию восстановления независимости нашей страны, провела ряд встреч.

Встречи первой леди Азербайджана и в Ватикане, и в Италии, торжественные мероприятия освещались как самые важные события общественной и культурной жизни Рима. Основанные на многочисленных фактах содержательные выступления первой леди Мехрибан Алиевой об успехах Азербайджана в годы независимости, волнующая сердца увертюра к опере гениального композитора Узеира Гаджибейли «Корглу», бесценные шедевры древнего культурного наследия нашего народа – ковры, завоевали сердца итальянцев.

**PASHAYEVA AYBENIZ TELMAN**
***E-mail: TarixVəOnunProblemləri@gmail.com***

### The role of Haydar Aliyev Foundation in Azerbaijan's foreign policy

First Lady of Azerbaijan, President of the Heydar Aliyev Foundation Mehriban Aliyeva was on a visit to Vatican and Rome from 28 November to 2 December. The First Lady's meetings to Vatican and Italy and celebrations were highlighted as the most important events in social and cultural life of Rome. The comments about the meeting with Vatican Cardinal Ravasi focus on ties between Vatican and Azerbaijan. "It was noted at the meeting that around 40 manuscripts related to Azerbaijan, which are kept in Vatican library, are being restored. Fifteen manuscripts, including an old Quran, have already been restored. Based on friendship between the two coutres, Cardinal Ravasi asked the Azerbaijan Government and First Lady to support the restoration of St. Pietro and Marchellino catacombs in Rome," the article says.

***Rəyçilər: t.e.n. A.Ə.Rzayev, t.e.d. R.C.Süleymanov***
***BDU-nun Tarix fakültəsi Elmi Şurasının 05 mart 2012-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 07)***